# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 415** **Bakı şəhəri, 26 oktyabr 2020-ci il**

"Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2009, № 3, maddə 201, № 12, maddə 1079; 2012, № 10, maddə 1029; 2016, № 12, maddə 2236) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adından və 1-ci hissəsindən "peşə" sözü çıxarılsın.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları" üzrə:

2.1. adından, 1-ci, 2-ci hissələrindən, 12-ci hissəsinin birinci abzasından, 18-ci, 19-cu hissələrindən, II, III və V bölmələrinin adından "peşə" sözü çıxarılsın;

2.2. 3-cü hissənin birinci abzasında və 5-ci hissədə "peşə təhsili keçməsi" sözləri "təhsil alması" sözləri ilə əvəz edilsin;

2.3. 6-cı hissə üzrə:

2.3.1. ikinci abzasdan "peşə" sözü çıxarılsın;

2.3.2. üçüncü abzasın ikinci cümləsində "peşə təhsili keçmə", "peşə təhsili keçəcək" və "peşə təhsili keçirilməsi" sözləri müvafiq olaraq "əlavə təhsil", "təhsil alacaq" və "təhsil alması" sözləri ilə əvəz edilsin;

2.3.3. dördüncü abzasda "peşə təhsili keçməsinə" sözləri "təhsil almasına" sözləri ilə əvəz edilsin;

2.4. 7-ci, 8-ci və 9-cu hissələrdə "peşə təhsilidir" sözləri "təhsildir" sözü ilə əvəz edilsin;

2.5. 10-cu hissədə "peşə təhsilinin" sözləri "təhsilin" sözü ilə əvəz edilsin;

2.6. 11-ci hissə aşağıdakı redaksiyada verilsin:

"11. Dövlət qulluqçularının əlavə təhsili qulluqkeçmədən ayrılmaqla, qismən ayrılmaqla və ya ayrılmamaqla həyata keçirilir.";

2.7. 13-cü hissənin ikinci abzasında "peşə təhsilini" sözləri "təhsili" sözü ilə əvəz edilsin;

2.8. IV bölmənin adında, 14-cü və 22-ci hissələrdə "peşə təhsili" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

2.9. 15-ci hissə üzrə:

2.9.1. birinci abzasda "peşə təhsili keçmə" sözləri "təhsil alma" sözləri ilə əvəz edilsin;

2.9.2. ikinci abzasda "peşə təhsili" sözləri "təhsilin" sözü ilə əvəz edilsin;

2.10. 23-cü hissədə "peşə təhsili keçmiş" sözləri "təhsil almış" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 28 oktyabr.- S.10.